# Tariyel Qasımov

4 fevral 1939-cu ildə Qazax şəhərində anadan olub. Orta məktəbi bitirdikdən sonra Bakıya gəlib. Aktyorluğa olan həvəsi onu 1960-cı ildə Teatr İnstitutunun kino və dram aktyorluğu fakültəsinə gətirib. 1964-cü ildə ali təhsili başa vurduqdan sonra Gənc Tamaşaçılar Teatrında işə başlayıb. 1966-cı ildə Naxçıvan Musiqili Dövlət Dram Teatrına dəvət olunub. 1967-ci ildə isə İrəvanda açılan Azərbaycan Dövlət Dram Teatrının ilk aktyorlarından biri olub.

1968-ci ildə yenidən Bakıya qayıdıb və "Azərbaycanfilm" kinostudiyasında rejissor asissenti kimi fəaliyyətə başlayıb.

1971-ci ildə Gənc Tamaşaçılar Teatrına dəvət edilib. Həmin vaxtdan bu teatrın aparıcı aktyorudur. O, "Azərbaycanfilm", "Mosfilm", "Türkmənfilm", "Özbəkfilm", "Tacikfilm", Almaniyanın "Defa" kino-studiyalarında filmlərə çəkilmişdir. Respublikanın xalq artistidir. Tariyel Qasımovun ümummilli liderimiz Heydər Əliyevə həsr etdiyi "Azadlıq atası" adlı kitabı 1998-ci ildə çapdan çıxmışdır.

● Məhəbbət CAHANGİROVA